**Cəfərov M.** Ana, mənimlə fəxr et // Respublika. - 2024. - 3 oktyabr. - **№ 216**. - S. 6.

**44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "İrəli, Azərbaycan əsgəri!" çağırışına cavab verən gənclərimiz böyük ruh yüksəkliyi ilə silaha sarılaraq torpaqlarımızı işğaldan azad etdi, üçrəngli bayrağımızı əzəmətlə dalğalandırdılar. Azərbaycan əsgəri yazdığı yeni tarixlə xalqımızın qürurunu özünə qaytardı. Həmin gənclərdən biri də şəhid Əfqan Hüseyn oğlu Axundovdur.**

16 fevral 2000-ci ildə Salyan şəhərində anadan olub. Ailədə bir qardaş, bir bacı olublar. Atası Hüseyn Əfqanın 8 yaşı olanda - 48 yaşında ağır xəstəlikdən dünyasını dəyişib. Ailənin bütün ağırlığı anası Xoşgül xanımın üzərinə düşüb. O, balalarını çox çətinliklə böyüdüb. Əfqan 2015-ci ildə Salyan şəhər 1 saylı humanitar məktəbin 9-cu sinfini bitirərək, Dənizçilik Kollecinə daxil olub. Maddi cəhətdən çətinlik çəkdikləri üçün gündüzlər oxuyub, axşamlar isə işləyib.

Əfqan 2019-cu ildə Dənizçilik Kollecini bitirərək hərbi xidmətə yollanıb. Tərtərdə qulluq edib. Az vaxt ərzində əsgər yoldaşları və zabitlər arasında öz səmimiliyi və qorxmazlığı ilə dərin hörmət qazanıb. Anası Xoşgül xanımın xatirələrindən: "Bilirdim, çox vaxt ac olur. Amma soruşanda deyərdi ki, hər şeyim var. Deyərdim ki, göstər telefonda baxım, cavab verərdi ki, küçədəyəm, göstərə bilmirəm. Deyirdi ki, mən şəhid olacam. Çünki şəhidlərin yeri cənnətdir... Balam arzusuna çatdı".

Müharibə vaxtı Əfqan həm də anasına zəng vuraraq onunla fəxr etməsini istəyib. Deyibmiş ki, "ana, mənimlə fəxr et, Suqovuşanın alınmasında iştirak etmişəm". Sonuncu dəfə isə oktyabr ayının 15-də anasına səsli mesaj yollayaraq deyib ki, "məndən nigaran qalma".

Bacısı Turanə deyir: "Əfqan qaradinməz olduğu qədər də istiqanlı və mərd idi. Əfqan mənə həm ata, həm də qardaş olub. Onun tərxis olunmasına dörd ay qalmış mən nişanlanmışdım. Mənə telefonda dedi ki, "darıxıb eləmə, qardaşın gəlib sənə dəbdəbəli bir toy edəcək. Gecə-gündüz işləyib sənə cehiz də alacağam".

Yaralı əsgər dostunun dediyinə görə, hücum zamanı komandirləri mayor Ramid Hacıyevdən sonra Əfqan irəlidə gedirmiş. Bu zaman düşmənin atdığı mərminin onların yanına düşməsi nəticəsində komandir və Əfqan şəhid olub, həmin əsgər isə ağır yaralanıb.

Əfqan Axundov oktyabr ayının 16-da şəhid olsa da, uğrunda canından keçdiyi torpağa oktyabr ayının 29-da tapşırılıb. Şəhid olmuş komandirin və əsgərinin nəşini düşmənin atəşi altında olan mövqedən bir müddət çıxarmaq mümkün olmayıb.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən Azərbaycan Ordusunun 19 yaşlı əsgəri Əfqan Hüseyn oğlu Axundov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Salyan şəhərində əziz xatirəsinə bulaq tikilmişdir.

Əfqan yağı düşmən üzərində şanlı Qələbəni görməsə də, bu gün ruhu şaddır. Çünki Vətən torpağı şəhidləri ilə ucalır.